# AZƏRBAYCAN RESPUBLİKASININ
# NAZİRLƏR KABİNETİ
# Q Ə R A R

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 3 may tarixli 87 nömrəli Qərarı ilə təsdiq edilmiş “Epidemik göstərişlərə görə profilaktik peyvəndlərin aparılması müddəti və Qaydası”nda, 2002-ci il 29 aprel tarixli 74 nömrəli Qərarı ilə təsdiq edilmiş “Psixoloji-tibbi-pedaqoji komissiya barədə Əsasnamə”də və 2003-cü il 31 oktyabr tarixli 145 nömrəli Qərarı ilə təsdiq edilmiş “Vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı Qaydası”nda dəyişiklik edilməsi haqqında**

“Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxslərin xüsusi sənədləri haqqında” Əsasnamənin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında” 1998-ci il 13 mart tarixli 684 nömrəli, “Azərbaycan Respublikasının Ailə Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” 2000-ci il 6 mart tarixli 297 nömrəli, “Yoluxucu xəstəliklərin immunoprofilaktikası haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” 2000-ci il 17 iyun tarixli 353 nömrəli, “Azərbaycan Respublikasında vərəmlə mübarizə haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” 2000-ci il 15 iyul tarixli 367 nömrəli, “Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” 2001-ci il 19 iyul tarixli 540 nömrəli, “Gənclər siyasəti haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” 2002-ci il 6 may tarixli 697 nömrəli və “Şəkərli diabet xəstəliyinə tutulmuş şəxslərə

dövlət qayğısı haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2004-cü il 12 fevral tarixli 32 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 18 iyul tarixli 2226 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 3 may tarixli 87 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 5, maddə 337; 2003, № 6, maddə 342; 2004, № 10, maddə 871; 2016, № 9, maddə 1585; 2020, № 11, maddə 1417; 2021, № 9, maddə 1085; 2022, № 8, maddə 1023) ilə təsdiq edilmiş "Epidemik göstərişlərə görə profilaktik peyvəndlərin aparılması müddəti və Qaydası"nın 1-ci hissəsində "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin" sözləri "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 29 aprel tarixli 74 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 4 (II kitab), maddə 215; 2005, № 4, maddə 375; 2011, № 5, maddə 449; 2015, № 12, maddə 1582; 2020, № 11, maddə 1417; 2022, № 4, maddə 413, № 12, maddə 1552) ilə təsdiq edilmiş "Psixoloji-tibbi-pedaqoji komissiya barədə Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

2.1. 2.1-ci (hər iki halda), 2.3-cü və 2.4-cü bəndlərdə "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" sözləri "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" sözləri ilə əvəz edilsin;

2.2. 3.8-ci bənddə "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinə" sözləri "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinə" sözləri ilə əvəz edilsin.

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2003-cü il 31 oktyabr tarixli 145 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 10, maddə 627; 2005, № 7, maddə 678; 2006, № 2, maddə 185, № 4, maddə 378, № 5, maddə 470, № 9, maddə 819, № 10, maddə 902; 2007, № 5, maddə 546, № 10, maddə 1026; 2008, № 2, maddə 114; 2010, № 7, maddə 700; 2011, № 7, maddə 737; 2012, № 2, maddə 178, № 11, maddələr 1203, 1212, № 12, maddə 1359; 2013, № 3, maddə 348, № 5, maddə 580; 2014, № 5, maddə 554, № 8, maddə 1005; 2015, № 5, maddə 669; 2016, № 2 (II kitab), maddə 389, № 7, maddə 1343, № 9, maddə 1585, № 11, maddə 1976; 2017, № 7, maddə 1499, № 12 (II kitab), maddə 2525; 2018, № 12 (II kitab), maddə 2760; 2019, № 3, maddə 516, № 4, maddələr 763, 781, № 8, maddə 1478; 2020, № 3, maddə

369, № 9, maddə 1206, № 10, maddələr 1273, 1304; 2021, № 2, maddə 207, № 3, maddə 274, № 9, maddə 1069; 2022, № 4, maddə 423, № 7, maddə 820, № 8, maddə 974; 2023, № 7, maddələr 1071, 1082, № 8 (II kitab), maddə 1240; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 21 oktyabr tarixli 375 nömrəli Qərarı) ilə təsdiq edilmiş “Vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı Qaydası”nın 2.2-ci bəndində aşağıdakı dəyişikliklər edilsin:

3.1. üçüncü abzas üzrə:

3.1.1. birinci cümlədə “Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin tabeliyindəki tibb müəssisəsi tərəfindən dərhal İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinə, digər tibb müəssisəsi tərəfindən isə” sözləri “tibb müəssisəsi tərəfindən dərhal” sözləri ilə əvəz edilsin;

3.1.2. ikinci cümlədən “və İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi” sözləri çıxarılsın;

3.2. dördüncü abzasdan “və İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinə” və “və İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin” sözləri çıxarılsın.

**Əli Əsədov**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, 20 dekabr 2023-cü il

№ 457